# Naxçıvanlı qadınların səhnə fəaliyyəti

Tariximizin qəhrəmanlıq səhifələrində Azərbaycan qadınlarının öz şöhrəti, öz şərəfi, öz ləyaqəti var. Qadın ləyaqətinə, qadın şərəfinə, qadın mətanətinə, qadın mənliyinə, qadın qüdsiyyətinə yüzlərlə dastanlar qoşulmuş, nəğmələr yazılmış, nağıllar, rəvayətlər söylənmişdir. Ana, Qadın xalqımızın mənlik heykəlidir. Həmişə Qadın haqqında düşünəndə ulu Cavidin aşağıdakı dərin hikmətlə dolu olan qiymətli misraları yada düşür:

**...Qadın günəş, cocuq - ay... nuru ay günəşdən alır,**
**Qadınsız ölkə çapuq məhv olur, zavalı qalır.**
**Qadın əlilə fəqət bəxtiyar olur bu cahan,**
**O bir mələk... onu təqdis edər böyük yaradan.**
**O çox sevimli, gözəl, incə, nazlı bir xilqət,**
**Onun ayaqları altındadır fəqət cənnət,**
**Qadın gülərsə bu issız mühitimiz güləcək,**
**Sürüklənən bəşəriyyət qadınla yüksələcək.**

Bu cür poetik nümunələr bir daha Qadının fövqəlbəşər varlıq olduğunu əyani şəkildə sübut edir.

Tarixi bir faktdır ki, Azərbaycan qadını uzun əsrlər məngənə altında saxlanmış, hüququ əlindən alınmış və kölə vəziyyətində yaşamışdır. Hələ vaxtilə N.Q.Çernışevski yazırdı "...Qadın təbiətən nə qədər sadiq, güclü, zəkalı olmuşdur; lakin cəmiyyət bu zəkadan istifadə etmir, onu rədd edir, onu sıxışdırır, onu boğur, halbuki bu zəka rədd edilməsəydi, əzilməsəydi, fəaliyyət göstərsəydi, bəşər tarixi on qat sürətlə inkişaf edərdi".

Bu məqamda böyük Azərbaycan ədibi Rəşidbəy Əfəndiyevin müdrik bir ifadəsini də yada salmaq yerinə düşərdi: "Qadınları heyvan kimi, qul kimi tərbiyə və elmdən bibəhrə saxlamaq, gələcək nəsli də fəlakətə sürükləyir. Təcrübə ilə isbata yetişmişdir ki, hər bir millətin, hər bir tayfanın səadəti və xoşbəxtliyi arvadların dərəceyi elmiyyəsindən asılıdır".

Feodal - patriarxal quruluş darmadağın edildi, qadınlar azadlığa çıxdı, cəmiyyətin inkişaf mərhələsində yaxından iştirak etməyə başladılar. Hələ böyük Mirzə Cəlil "Köhnə dərdim" adlı məqaləsində yazırdı ki, "...Şərq qadınını azad etmək. Nədən? Şəriətin kəməndindən, müsəlmançılığın zəncirindən, hərəmxanaların zindanından, qara çadirşəbin zülmətindən" Və illər keçdi, Mirzə Cəlilin arzu, dilәkləri həyata keçdi. Qırıldı paslı zəncirlər, atıldı qara çarşablar, zülmətdən azadlığa çıxdı Şərq qadını.

Tarixi bir fakta nəzər salaq:

İyirminci yüzilliyin əvvəllərində naxçıvanlı qadınlar maarifin, mədəniyyətin inkişafı mərhələsində fəal mübarizəyə qoşuldular. Naxçıvanda ilk dəfə olaraq Qadınlar klubu açıldı. Cəhalət pəncəsində inləyən Naxçıvanın zəhmətkeş qadınları keçmişin mənfur çadrasını ataraq yeni, xoşbəxt həyatda fəallıq göstərdilər. Qadınlar klubunda dram dərnəyi yaradıldı. Dövrün ziyalı qadınlarından sayılan Nazlı xanım Nəcəfova başda olmaqla Siddiqə Bağırova, Süsən və Dilbər Sultanovalar, Güşvər Axundova, Səkinə Rzalı, Həlimə Bağırova, Sona Sadıqova, Gövhər Kəngərli, Xanım Vəzirova, Fatma Şeyxova, Günəş Kəngərli həmin dram dərnəyinin fəal üzvləri olurlar. Uzun illər Naxçıvan teatrının direktoru olmuş Əli Xəlilov öz xatirələrində yazır: "1917-ci il noyabr ayının 12-də cümə günü teatrın binasında qadınlar üçün "Arşın mal alan" musiqili komediyası göstərildi. Zal qadınlardan ibarət tamaşaçı ilə dolu idi. Tamaşada iştirak edən həvəskarlar öz rollarını yaxşı oynadılar. Həmin bu qadınlar truppasına teatrımız rəhbərlik edib, onu rejissor, suflyor, musiqi dəstəsi, paltar, qrim və başqa lazım olan şeylərlə təmin etmişdi. Rolları aşağıdakı qadınlar və qızlar ifa edirdi: Soltanbəy - Süsən Sultanova, Cahan xala - Gövhər Kəngərli, Süleyman - Asya Məmmədəliyeva, Vəli - Xanım Vəzirova, Gülçöhrə - Dilbər Sultanova, Əsgər - Günəş Kəngərli, Asya - Bəyim Naxçıvanskaya, Telli - Fatma Şeyxova". (bax. Əli Xəlilov "Naxçıvan teatrının tarixi" - Bakı,1964, səh.42)

Təbii ki, o illər, mövhumatın, cəhalətin, dini xurafatın hökm sürdüyü bir əyyamda qadınların bu cəfakeşliyi, açıq fikirliyi mühüm bir mədəni hadisəyə çevrildi. Bu tamaşadan sonra naxçıvanlı qadınlar bir neçə pyesləri də uğurla oynadılar.

Naxçıvanda fəaliyyət göstərən Qadınlar klubunun fəaliyyəti gündən-günə artırdı. 1925-ci ildə "Şərq Qadını" jurnalının aprel nömrəsində Əkbər Fəxri adlı bir müxbir belə yazırdı: "Naxçıvanda teatr işləri indi əvvəlkilərə nisbətən parlaq bir surətdədir, belə ki, qadınların özlərinə məxsus gözəl səhnələri olub, teatr verməklərinə ehtimal var. Əlavə olaraq teatrda bir pianino vardır, qadınlar çalmaq öyrənirlər. Ümumiyyətlə, teatr işləri bu son zamanlarda tərəqqi etmişdir".

Bir faktı qeyd etmək lazımdır ki, Naxçıvan teatrında qadın məsələsi həmişə diqqət mərkəzində olmuşdur. Məhz bu məsələni birdəfəlik həll etmək üçün qadın aktrisalarından istifadə etmək məsələsi ciddi problem kimi qarşıda dayanırdı. Artıq yavaş-



yavaş bu problem həll olunurdu. M.F.Axundovun yaratdığı qadın surətlərindən bəhs edən Cəlil Məmmədquluzadə deyirdi: "Qara pərdə dalından dünyanın işığına bunları çıxarıb göstərməklə - Mirzə Fətəli bunu kişilərə demək istəyir: Bax, bu qoçaq və gözəl qadınlar - indi avam və nadan bir insanlardılar. Görürəm ki, indi siz bunlara dərs və tərbiyə verməkdən ehtiyat edirsiniz. Çünki bilirsiniz ki, bu zəkalı və qüdrətli qadınlar gələcəkdəki inqilabın sayəsində almış olduqları tərbiyə və elmin təsiri altında öz azadlıqlarını əldə edib və onlardan sonra dəxi sizin ailə içərisində ağalığınıza və səfalətinizə imkan qalmayacaqdır. Zira ki, dəxi insanlıq hüququndakı agah olan bu qadınlar, şəriətin çomağını dəxi siz kişilərin əlindən alıb həmişəlik tullayacaqlar".

O vaxtın tanınmış sənətkarlarından Əli Xəlilovun, Səməd Mövləvinin, Heydər Muradovun və başqalarının xatirələrində qeyd olunur ki, Naxçıvanda fəaliyyət göstərən Qadınlar klubu getdikcə sıralarını genişləndirirdi. Təbii ki, bu işdə onlara Naxçıvan teatrının kollektivi yaxından köməklik göstərirdi. 1917-ci ildə qadınlar tərəfindən tamaşaya qoyulan "Arşın mal alan" (Ü.Hacıbəyov) 1922-ci ilin mart ayında yenidən tamaşaçılara göstərildi.

Əli Xəlilov öz xatirələrində yazır: "Arşın mal alan" tamaşaya qoyularkən pərdə açılmazdan əvvəl qadınlar klubunun müdiri səhnə qarşısına çıxıb, aşağıdakı sözlərlə tamaşaçı qadınlara müraciət etdi: "Analarımız və bacılarımız! İnqilabdan əvvəl qadınların belə yerlərə gəlməsini bağışlanmaz günah və biz qadınlar üçün rüsvayçılıq hesab edirdilər. Teatra gələn qadınları amansızcasına təqib edirdilər. Lakin bu gün biz azad nəfəs alırıq, ictimai həyata qovuşuruq. Teatra gəlməkdən daha qorxmuruq, həm də həvəs və cəsarətlə səhnədə çıxış edirik...". (bax: Əli Xəlilov "Naxçıvan teatrının tarixi" Bakı,1964, səh.51).

O illərin tanınmış aktyoru Heydər Muradov bu sətirlərin müəllifi ilə söhbətində dönə-dönə qeyd edirdi ki, naxçıvanlı qadınlar doğrudan da böyük fədakarlıq göstərirdilər. Teatrın kollektivi rəsmi surətdə qadınlar klubunu dram dərnəyinə təhkim etmişdir. Heydər Muradov deyirdi ki, Naxçıvanın ziyalı qadınlarından Xavər Vəlibəyova, Nəcibə xanım, Cənnət xanım, müəllimə Nazlı xanım Nəcəfova və başqaları dram dərnəyinin işində xüsusi fəallıq göstərirdilər.

Məlumdur ki, ölməz dramaturqumuz Cəfər Cabbarlının məharətlə yaratdığı qadın obrazlarının, xüsusən də Sevil və Almaz surətlərinin çox böyük inqilabi təsiri olmuşdur. 1929-cu ilin mart ayının 8-də Naxçıvan teatrında C.Cabbarlının "Sevil" pyesi Səməd Mövləvinin quruluşunda tamaşaya qoyulur. Tamaşanın premyerası böyük təntənə ilə keçir. Tamaşanın təlqin gücü də təsirliydi. Sırf qadın azadlığına həsr olunan bu tamaşa yeni həyatın təntənəsi kimi səciyyələnirdi. "Sevil" tamaşasının əxlaqi-etik dəyərləri qadınlara ciddi təsir göstərirdi.

Azərbaycan Respublikasının əməkdar artisti Xədicə xanım Qazıyeva öz xatirələrində yazır: "Artıq ikinci il idi ki, Naxçıvan teatrında fəaliyyət göstərirdim. Bu teatrın səhnəsində artıq bir neçə rol da oynamışdım. Mçedaşvilinin "Qaçaq Kərəm" tamaşasında Sirab rolunu oynayırdım. Xatırladım ki, bu tamaşanın quruluşçu rejissoru, müqtədir aktyorumuz Kazım Ziya idi. C.Cabbarlının "Sevil" pyesi isə 1929-cu ilin mart ayının 8-də Beynəlxalq Qadınlar günündə tamaşaya qoyuldu və tamaşanın quruluşçu rejissoru Səməd Mövləvi idi. Bu tamaşada mən Gülüş rolunu oynayırdım. Tamaşa böyük gurultuyla keçdi. Salon qadınlarla dolu idi. Üçüncü pərdədə Sevil (Zina Budaqova) çadrasını Balaşın (Səməd Mövləvi) üzünə çırpdığı zaman salonda böyük bir həyəcan əmələ gəldi. Salondakı qadınlar da "məhv olsun çadra, məhv olsun köhnə dünya" deyərək örtdüklərini səhnəyə tullamağa başladılar. Atılan çadraların sayı yüzdən çox idi.

Bu hadisədən sonra Naxçıvan teatrına qadınların güclü axını başlandı. Və təbii ki, bütün bunlar özünün müsbət səmərəsini göstərirdi. Cəfər Cabbarlının arzuladığı kimi səhnədə Milli yavru görünürdü.

Azərbaycanın xalq artisti, görkəmli teatr xadimi Səməd Mövləvi öz xatirələrində yazır: "Həmin il (1932-ci il - C.V.) "Sevil" tamaşasını yenidən göstərdik. Zal tamaşaçılarla dolu idi. Əsər (tamaşa) uğurla keçdi.

Sabahı evdən çıxıb teatra gedirdim. Aktyor Məhbubə Məmmədova qarşımı kəsdi. Onun yanında iki qız var idi. Məni onlarla tanış edib dedi:

- Müəllim, bunlar teatrın böyüyünü axtarırlar, onunla işləri var. Mən onları teatrın direktorunun kabinetinə apardım və yer göstərdim: - Bacılar, əyləşin!

Onların qəribə geyimləri vardı: birinin əynində bozarmış şinel, başında rəngi solmuş yaylıq vardı. Yaylığın bir ucunu yaşmaq kimi üzünə çəkmişdi. O birisinin əynində isə kəndli arvadlarına məxsus uzun tuman, başında tənzifdən yaylıq vardı. Yaman utancaq idi, başını aşağı salmışdı.

Soruşdum: - Bacı, indi deyin görüm, nə istəyirsiniz?

Onlardan biri dedi: - Buranın böyüyünü axtarırıq, ona ərizəmiz var.

Soruşdum: - Bacı, siz "böyük" kimə deyirsiniz, teatrın direktoru lazımdırsa, mən onu əvəz edirəm (o vaxtlar teatrın direktoru Əli Xəlilov idi. - C.V.)

Onlar mənə bir ərizə verdilər. Ərizədə yazmışdılar ki, biz keçən gecə sizin teatrda "Sevil" tamaşasına baxdıq. Çox xoşumuza gəldi. Xüsusən Sevili oynayan

arvad (Sevili Zina Budaqova oynayırdı - C.V.) çox yaxşı çıxış edirdi. Biz də istəyirik ki, sizin teatra daxil olub, burada işləyək.

Onların ərizəsi məni son dərəcə sevindirdi. Əlbəttə, azərbaycanlı qızların teatra gəlişi sevindirici hal idi. Ad və familiyalarını ərizədən oxudum. Firuzə Əlixanova və Telli Əkbərova.

Sonra xəbər aldım: - Çox yaxşı, səsiniz var? Oxuya bilirsinizmi?

Telli dilləndi: - Mənim səsim yoxdur, amma Firuzə gözəl oxuyur.

- Doğrudanmı, Firuzə? Bir şey oxuyarsanmı?
- Nə oxuyum?
- Nəyi yaxşı oxuyursan?

Onun əvəzinə Telli cavab verdi: - İcazə verin, "Şahnaz" oxusun.

Bu lap yaxşı, deməli, muğamat da bilir!

Adam göndərdim, tarçalan Tapdığı (Tapdıq Hüseynov - C.V.) çağırdı. Tapdıq gəldi. Ona dedim ki, bir "Şahnaz" çalsın, bu qız oxuyacaq. Tapdığın tarı dilə gəldi. Onun ardınca məlahətli bir səs otağa yayıldı. Mən Firuzəni dinlədikcə sevinir, xəyalımda yeni opera tamaşaları canlanırdı. Axı, operaları tamaşaya qoymamağımızın bir səbəbi də yaxşı səsə malik qadın aktyorlarımızın olmaması idi". (bax: "Səhnədən keçən yollar" kitabına. Səməd Mövləvinin "Naxçıvan teatrında" adlı məqaləsinə. Bakı, 1983, səh.247-248).

Firuzə Əlixanovanın Naxçıvan teatrına gəlişi sözün əsl mənasında bir tapıntı oldu. Artıq Naxçıvan teatrının səhnəsində "Leyli və Məcnun", "Əsli və Kərəm", "Aşıq Qərib", "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" kimi opera və operettalar oynanılmağa başlandı. Firuzə xanım bu tamaşalarda Leyli, Əsli, Şahsənəm, Minnət, Gülnaz, Gülçöhrə kimi dəyərli obrazlar oynadı.

Naxçıvan teatrında qadın aktrisalarının sayı getdikcə çoxalırdı. Bunların gəlişi teatrın repertuarında zənginlik yaratdı. Və bir aydan sonra müqtədir aktyorumuz Sidqi Ruhulla Naxçıvan teatrına dəvət olundu. Sidqi Ruhulla 1931-dən 1933-cü ilə qədər Naxçıvan teatrının direktoru və baş rejissoru işlədi. Repertuarda artıq dünya klassiklərinin - Şekspirin, Şillerin pyesləri görünməyə başladı. "Otello", "Qaçaqlar" kimi monumental pyeslər Naxçıvan teatrında oynanıldı. Zina Budaqovanın, Firuzə Əlixanovanın, Nadirə Rzayevanın oynadıqları qadın rolları tamaşaçı diqqətindən yayınmadı.

Ötən əsrin 30-40-cı illərində Firuzə xanım Əlixanovanın geniş yaradıcılıq illəridir. Və bunu da yada salım ki, 118 yaşlı Naxçıvan teatrının ilk Milli aktrisası Firuzə Əlixanova olmuşdur. O illər Firuzə xanım N.B.Vəzirovun, Ə.B.Haqverdiyevin, N.Nərimanovun, H.Cavidin, C.Məmmədquluzadənin, S.S.Axundovun, C.Cabbarlının pyeslərində müxtəlif səpgili rollar düzümü yaratmışdır.

40-cı illərin əvvəllərində Zəroş xanım Həmzəyevanın Naxçıvan teatrına gəlişi özünün müsbət təsirini göstərdi. Teatrın romantik qolu daha da gücləndi. İlk dəfə səhnəyə Yetər rolunda ("Yağışdan çıxdıq, yağmura düşdük" - N.B.Vəzirov) qədəmlərini basan Zəroş xanım sonrakı illərdə romantik və dramatik rolları ilə nəzərlərdə diqqətləndi. C.Cabbarlının "Solğun çiçəklər" dramında Sara, Gülnisə, "Vəfalı Səriyyə" pyesində Səriyyə, "Aydın" əsərində Gültəkin, "Od gəlini" faciəsində Solmaz, "Nəsrəddin şah" faciəsində Sitarə, "Almaz" dramında Almaz, "Sevil"də Sevil, "1905-ci ildə" Sona, "Yaşar"da Yaqut, "Dönüş" əsərində Gülsabah kimi zəngin mənəviyyatlı səhnə surətlərini yaratdı. Bundan başqa Zəroş xanım H.Cavidin "Şeyx Sənan" mənzum faciəsində Xumar, "Səyavuş"da Südabə kimi monumental obrazlara mənalı səhnə ömrü bəxş etdi. Görkəmli sənətkarın əlvan duyğularla rəsm etdiyi S.Rüstəmin "Qaçaq Nəbi" dramında Həcər, Z.Xəlilin "Qatır Məmməd" pyesində Gülcamal, N.Nərimanovun "Nadir şah" faciəsində Gülcahan, S.Vurğunun "Vaqif" və "Fərhad və Şirin" tamaşalarında Xuraman, Şirin və Məryəm, ispan dramaturqu Lone De Veqanın "Sevilya ulduzu" dramında Esteriliya, Kəmalə Ağayevanın "Məhsəti" mənzum dramında Məhsəti, Hüseyn Razinin "Odlu diyar" pyesində Diləfruz, Ü.Hacıbəyovun "Arşın mal alan", "Ər və arvad", "O olmasın, bu olsun" operettalarında Gülçöhrə, Minnət, Gülnaz özünün emosional və təbii ifasıyla Naxçıvan teatrının salnaməsinə daxil oldu.

1944-cü il aprel ayının 25-də Firuzə Əlixanova və Zəroş Həmzəyeva Naxçıvan Muxtar Respublikasının əməkdar artisti fəxri adına layiq görüldülər. Naxçıvan teatrının tarixində qadınlar arasında bu fəxri ada layiq görülən məhz bu iki sənətçi olmuşdur. Və illər keçəndən sonra Firuzə Əlixanova və Zəroş Həmzəyeva daha böyük titula - Azərbaycanın xalq artisti fəxri adına layiq görüldülər.

Naxçıvanlı qadınlardan Məhbubə Məmmədova, Telli Əkbərova, Gülüş Quliyeva, Nəzakət Əliyeva və başqaları yalnız bir müddət teatrda fəaliyyət göstərdilər. Təbii ki, biz onların da xidmətlərini unutmuruq, həmişə onları xoş hisslərlə yada salırıq. Teatrın ağır vaxtlarında onlar əsl mənada fədakarlıq göstərmişlər.

(davamı növbəti sayımızda)

**CƏLİL VƏZİROV,**
**"Qızıl Dərviş" mükafatı laureatı, teatrşünas**